http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 18 (1615) 30 oktyabr 2015 - ci il Qiymәti 40 qәpik

# Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib

**Oktyabrın 28-də Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı olub.**

**Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**

**Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksini işə saldı.**

Dövlətimizin başçısı mərasimdə çıxış etdi: *"...Ümumiyyətlə, Azərbaycanda infrastruktur layihələrinin icrası prioritet məsələdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının əsas məqsədi də Bakıda və bütün bölgələrdə müasir infrastrukturun yaradılmasıdır. Bu istiqamətdə son illər ərzində çox böyük işlər görülmüşdür. Demək olar ki, elektrik enerjisi ilə bağlı bütün problemlər öz həllini tapmışdır. Biz əvvəlki illərdə xaricdən elektrik enerjisi alırdıqsa, bu gün nəinki öz tələbatımızı ödəyirik, eyni zamanda, xaricə də ixrac edirik. Vaxt var idi ki, biz qaz idxalı ilə məşğul idik, bizə qaz çatmırdı. Hazırda görülən işlər nəticəsində Azərbaycan nəinki regionda, dünyada qaz ixrac edən ölkəyə çevrilir. Biz bütün bunları son illər ərzində əldə etmişik. Kənd yollarının tikintisi, sosial infrastrukturun yaradılması həm Bakıda, həm bölgələrdə geniş vüsət almışdır.*

*Bu infrastruktur layihələrinin içində, əlbəttə ki, içməli su layihələri xüsusi əhəmiyyət daşıyır. Çünki içməli su insanların həyatına birbaşa təsir edən amildir. Şadam ki, bu gün Bakıda və bütün bölgələrdə içməli su layihələri icra edilir. Biz artıq bir çox şəhərlərimizdə mənim iştirakımla bu layihələrin açılışlarını etmişik. Hələ ki bəzi rayonlarda işlər davam edir və qarşıya məqsəd qoyulmuşdur ki, Azərbaycanın bütün şəhərlərində təmiz içməli su fasiləsiz və bütün əhaliyə verilsin...."*



## BU SAYIMIZDA


**2014-2015-ci tədris ilində Tibb Universiteti tələbələrinin istehsalat təcrübəsinin yekunları müzakirə edilib** 2



**Tədris Cərrahiyyə Klinikasında elmi-praktik seminar keçirilib** 5

**Əliağa Əlizadənin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans** 4



**Tibbi Şuranın növbəti yığıncağında** 5

**Bu tədris ilində Tibb Universitetinin 300-dək tələbəsi xaricdə təcrübə keçib** 5



**Hərbi Tibb Fakültəsində Elmi seminar** 3



**Tibb Universitetinə qəbul olunan xarici tələbələrlə görüş** 3

**Tibb Universitetinin həkimləri ana bətnində ikən bədəninə maye yığılan uşağı həyatda saxladılar** 5

**Tədris Cərrahiyyə Klinikasında radioloji müayinə üsulları müzakirə olunub** 7



BÖYÜK ELMİ ŞURADA

# 2014-2015-ci tədris ilində Tibb Universiteti tələbələrinin istehsalat təcrübəsinin yekunları müzakirə edilib

**Oktyabrın 26-da Böyük Elmi Şuranın növbəti yığıncağı oldu. Yığıncağı açan universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev gündəlikdə duran məsələləri diqqətə çatdıraraq "2014-2015-ci tədris ilində Tibb Universiteti tələbələrinin istehsalat təcrübəsinin yekunları" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü istehsalat təcrübəsi dekanı, dosent Şəfa Əliyevə verdi.**

Məruzəçi 2014/2015-ci tədris ilində müvafiq fakültə və kurs tələbələrinin qış və yay imtahan sessiyalarından sonrakı peşə təcrübəsi haqqında ətraflı məlumat verərək qeyd etdi ki, tələbələri peşə təcrübəsinə göndərərkən Azərbaycan Respublikasının Səhiyyə nazirinin 10 iyun 2014-cü il tarixli 51 saylı, həmçinin müvafiq kurslar üzrə Tibb Universitetinin rektoru, akademik Ə.Əmiraslanovun əmrlərinə istinad edilmişdir.

Səhiyyə nazirinin 2014-2017-ci illər üçün nəzərdə tutulan yeni əmrinə əsasən 11 elmi tədqiqat institutu, Bakı şəhərində fəaliyyət göstərən 10 gigiyena-epidemioloji xidmət müəssisəsi, 9 əczaçılıq müəssisəsi, Bakı şəhərindəki 67 müalicə-profilaktika müəssisəsi, Respublika ərazisində fəaliyyət göstərən 60 mərkəzi rayon xəstəxanası, Naxçıvan MR və respublika ərazisindəki şəhər səhiyyə şöbələrinin tabeçiliyində olan bütün tibb müəssisələri, ATU-nun elmi tədqiqat mərkəzi, kliniki-biokimyəvi laboratoriyası, tədris terapevtik, tədris cərrahiyyə, onkoloji və stomatoloji klinikaları, həmçinin bir sıra özəl tibb müəssisələri təcrübə bazaları kimi tələbələrin istifadəsinə verilmişdir. Bu tədris ilində də Bərdə, Cəlilabad, Füzuli, Qazax, Qəbələ, Quba, Lənkəran, Siyəzən, Şamaxı, Şirvan, Zaqatala müalicə diaqnostika mərkəzlərindən, Neftçilər xəstəxanasından da təcrübə bazası kimi istifadə olunmuşdur.

Səhiyyə nazirinin yeni əmrinə əsasən Analitik Ekspertiza mərkəzi, «Azerimed MMC», «Dokta MMC», «Maymed MMC» apteklər şəbəkəsindən əczaçılıq fakültəsinin tələbələri üçün təcrübə bazası kimi istifadə olunmuşdur.

Ş.Əliyev istehsalat təcrübəsinin keçirilməsinə tədris hissəsinin rəhbərliyi ilə fakültələrin və peşə təcrübəsinin dekanlıqlarının, eləcə də hərbi tibb fakültəsi də daxil olmaqla 31 aidiyyatı olan kafedranın məsuliyyət daşıdığını söylədi: "2014-2015- ci tədris ilində 67 müəllim yay və qış peşə təcrübəsinin keçirilməsinə rəhbərlik etmişdir (2 nəfər professor, 16 nəfər dosent, 2 nəfər baş müəllim, 47 nəfər assistent). Hərbi Tibbi fakültəsində 9 nəfər t/x polkovnik-leytenantı, 2 nəfər t/x polkovniki, 3 nəfər polkovnik-leytenant, 4 nəfər mayor, 1 nəfər t/x kapitanı, 3 nəfər kapitan, 1 nəfər baş leytenant, 1 nəfər leytenant, 2 nəfər hərbi cərrahiyyə kafedrasının müəllimi, 1 nəfər baş gizir dinləyicilərin ixtisas və qoşun təcrübəsinə rəhbərlik etmişlər (27 nəfər zabit heyəti)".



Bütün fakültələrin elmi şuralarında istehsalat təcrübəsinin yekunlarının təcrübə rəhbərlərinin iştirakı ilə geniş müzakirə olunduğunu, bir sıra tövsiyələr verilməklə fakültələrdə istehsalat təcrübəsinin yekunlarının kafi qiymətləndirildiyini bildirən dekan keçən tədris ilində təcrübənin yekunlarının Böyük Elmi Şurada müzakirəsi zamanı hörmətli rektorumuz akademik Ə.Əmiraslanovun peşə təcrübəsi dekanlığına bir sıra ciddi tapşırıqlar verdiyini vurğuladı: "Bunların arasında tələbələrin xarici ölkələrdə, xüsusən Türkiyə Cümhuriyyətində istehsalat təcrübəsi keçmələri praktikasının daha genişləndirilməsi, təcrübə başlayana qədər rəhbərlərlə seminar müşavirələrinin keçirilməsi kimi məsələləri qarşımıza vəzifə kimi qoymuşdur. Qeyd etdiyim kimi, bu tədris ilində də 300-ə qədər tələbə xaricdə təcrübə keçmişdir. Ümumiyyətlə, 2007-2008-ci tədris ilindən bu tədris ilinə qədər Türkiyədə 1458 nəfər, Avropa ölkələrində 160 nəfər (onlardan 106 nəfəri Almaniyada), Seçenov adına I Moskva Dövlət Tibb İnstitutunda 16 nəfər təcrübə keçiblər.



Sözünə davam edən natiq keçən tədris illərində olduğu kimi, aprel ayında müalicə-profilaktika və pediatriya fakültələrinin V kurs tələbələri üçün qruplara sorğu anketləri paylandığını və tələbələr arzuladıqları rayonları bildirdikdən sonra əmr tərtib edildiyini diqqətə çatdırdı. Bildirdi ki, V kurs tələbələrindən cəmi 272 tələbə istehsalat təcrübəsini Bakı şəhərində, qalanları isə respublikanın mərkəzi rayon xəstəxanalarında və müalicə diaqnostika mərkəzlərində keçiblər.

ATU-nun Stomatoloji klinikasının rəhbərliyi ilə bərabər tələbə çoxluğunu nəzərə alaraq növbəli qrafikin tutulması, ATU-nun onkoloji klinikasından müalicə-profilaktika, tibbi-profilaktika və tibbi-biologiya fakültələri tələbələrinin təcrübə bazaları kimi istifadə ediləcəyi, bir sıra özəl tibb müəssisələri ilə təcrübə keçmək məqsədilə qeyd-şərtsiz müqavilələrin bağlanması və digər məsələlər hazırlıq dövründə görülən işlərdir.

"Peşə təcrübəsinin gedişində, ona nəzarət edilməsində öz işimizdən razı qala bilmərik, heç şübhəsiz təcrübənin təşkili, keçirilməsi məsələlərində müəyyən çatışmazlıqlar var"-deyən Şəfa Əliyev bu çatışmazlıqları aradan qaldırmaq üçün təkcə dekanlığın deyil, təcrübənin keçirilməsinə rəhbərliyə tövsiyə olunmuş əməkdaşların da öz işlərində müəyyən dönüş yaratmasının vacibliyini önə çəkərək təcrübənin keyfiyyətini yüksəltmək üçün elmi şura üzvlərindən əməli təkliflər gözlədiyini söylədi.





Məruzə ətrafında çıxış edən kafedra müdirləri Elmira Əliyeva, Elxan Kərimov, Məhbubə Vəliyeva, Mirzə Kazımov və hərbi tibb fakültəsinin rəisi, t/x polkovniki Fəxrəddin Ağayev hesabatı qənaətbəxş qiymətləndirərək tələbələrin peşə təcrübəsi ilə bağlı fikirlərini söylədilər, təkliflərini irəli sürdülər.

Müzakirələrə yekun vuran professor S.Əliyev nəzəri biliklərin təcrübədə möhkəmləndirilməsinin əhəmiyyətinə diqqət yönəldərək bu sahədə mövcud olan problemlərin həlli yollarından danışdı: "Tədrisin, bütövlükdə mütəxəssis hazırlığının əsas vacib sahələrindən biri də təcrübədir. Desək ki, istehsalat təcrübəmiz yüksək səviyyədədir, heç bir problemimiz, çatmayan cəhətimiz yoxdur, bu düzgün olmazdı. Təbiidir ki, son 10 ildə istehsalat təcrübəsinin aparılmasında çox böyük irəliləyişlər var. Artıq tələbələrimiz Avropa ölkələrində də istehsalat təcrübəsi keçirlər. Qardaş Türkiyədə təcrübə keçən tələbələrimizin sayı xüsusilə çoxdur. Bizdə təhsil alan xarici tələbələrin istəyinə uyğun olaraq onları da öz ölkələrinə göndəririk. Bunlar hamısı olduqca təqdirəlayiqdir. Ancaq etiraf etməliyik ki, həmin tələbələrə nəzarəti qaydasında apara bilmirik və hələlik apara da bilmərik.

Çünki universitetimizdəki bazalarımızda, klinikalarımızda tələbələrə nəzarət edə bilirik, baza rəhbərləri, göndərdiyimiz müəllimlər, oradakı işçilərimiz məsuliyyət daşıyırlar. Ancaq Almaniyaya, Türkiyəyə və digər ölkələrə göndərdiyimiz tələbələrin təcrübəni harada, necə, proqrama uyğun keçib-keçməməsi barədə tam bilgiyə malik deyilik. Onlar gələndə təcrübəni harada keçdikləri və nəyi öyrəndikləri haqda məlumat gətirsələr də, tədris proqramının təcrübənin aparılmasına uyğunluq məsələlərində bu koordinasiya hələ qədərincə nizama salınmayıb. Universitet klinikalarında təcrübi vərdişlərin öyrədilməsi üçün olduqca səviyyəli şərait yaradıldığını vurğulayan prorektor neçə illərdir baza rəhbərlərinin və nəzarətçi müəllimlərin heç bir təkliflə çıxış etməməsindən təəssüfləndiyini də dilə gətirdi və universitet rəhbərliyinin bu məsələləri gələcəkdə də diqqətdə saxlayacağını vurğuladı.

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Həkim-rezidentlərin yekun attestasiyası olacaq

**Oktyabr 20-də Azərbaycan Tibb Universitetində rezidentlərin Yekun Attestasiyasına həsr olunmuş toplantı keçirilib.**







Universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyevin giriş sözü ilə açdığı tədbirdə rezidentlərin 2014-2015-ci tədris ili üzrə yekun attestasiyasının keçirilməsi barədə məlumat verilib. Qeyd olunub ki, rezidentlərin yekun attestasiyası məqsədilə Səhiyyə Nazirliyinin 08 oktyabr 2015-ci il tarixli əmrinə əsasən 27 ixtisas üzrə Attestasiya Komissiyası təşkil olunub. Yekun attestasiyanın iki mərhələdə-yazılı, test üsulu ilə və praktiki vərdişlərin yoxlanılması formasında həyata keçirilməsi tədbir iştirakçılarının diqqətinə çatdırıldı. Test imtahanı ATU-nun Virtual Test Mərkəzində (VTM) baş tutacaq. Yekun attestasiyanın test mərhələsindən müvəffəqiyyətlə keçən rezidentlər ikinci mərhələdə-praktiki vərdişlərin yoxlanılmasında iştirak edə bilərlər.

ATU-nun rezidentura şöbəsinin müdiri Rizvan Məmmədov çıxış edərək attestasiya imtahanının keçirilmə vaxtı və qaydaları haqqında iştirakçıları məlumatlandırdı. Yekun attestasiyanın praktiki vərdişlərin yoxlanılması mərhələsi 29 - 30 oktyabr 2015-ci il tarixlərində saat 9.00-da ATU-nun ixtisas üzrə müvafiq kafedralarında keçiriləcək.

Qeyd edək ki, rezidentlərin yekun attestasiyasının test mərhələsində texniki səhvə yol verməmələri üçün 19-20 oktyabr tarixlərində VTM-də sınaq test imtahanları keçirilib. Ötən tədris ilində yekun attestasiyadan keçmədiklərinə görə təkrari yekun attestasiyadan keçmək hüququ saxlanılan rezidentlər də yekun attestasiyada iştirak etmək üçün müraciət etməlidirlər.

# Tibb Universitetinə qəbul olunan xarici tələbələrlə görüş

**2015-2016-cı tədris ilində Azərbaycan Tibb Universitetinin hazırlıq fakültəsinə və I kursa qəbul olunan əcnəbi vətəndaşlar ilə Universitetin rəhbərliyi arasında görüş keçirilib.**





Tədbiri giriş sözü ilə açan ATU-nun Beynəlxalq işlər üzrə prorektoru, dosent Rəhimə Qabulova, əcnəbi dinləyiciləri və tələbələri salamlayaraq, onlara karyera yolunda uğurlar diləyib.

ATU-nun Xarici Tələbələrlə işlər üzrə dekanı, dosent İsmayıl Əfəndiyev isə bu ali ocaq barədə tədbir iştirakçılarına məlumat verib. O bildirib ki, bu il ATU-ya qəbul olunan xarici vətəndaşların sayı rekord həddə çatıb. Belə ki, I kursa və hazırlıq fakültəsinə 23 ölkədən 335 əcnəbi vətəndaş qəbul olunub.

ATU-nun İdman Klubunun rəhbəri Kamal Kəbirlinski bildirib ki, Tibb Universitetində xarici vətəndaşlara müxtəlif idman növləri ilə məşğul olmaq imkanları yaradılıb.

Daha sonra söz alan Azərbaycanda Oxuyan Əcnəbi Tələbələr təşkilatının nümayəndələri ATU-da təhsil alan xarici tələbələrin ölkəmizdə asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılan şərait barədə danışıblar.

Görüşdə eyni zamanda yataqxanaların vəziyyəti, xarici tələbələrin qidalanmasının təşkili, ATU-nu vaxtı ilə bitirən əcnəbi tələbələrlə əlaqələrin qurulması və s. məsələlər müzakirə olunub.

Görüşün yekununda əcnəbi tələbələrdən iki nəfər–Milad Keshavarz və Muhammed Turut Azərbaycanda Oxuyan Əcnəbi Tələbələr təşkilatının nümayəndəsi seçiliblər.

# ATU-nun Beynəlxalq Əlaqələr üzrə prorektoru Stokholm şəhərində keçirilən görüşlərdə iştirak edib

**Azərbaycan Tibb Universitetinin (ATU) Beynəlxalq Əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova 22-23 oktyabr 2015 tarixlərində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təşəbbüsü, İsveçin Ticarət və İnvestisiya Şurası, «Business Sweden» şirkətinin təşkilatçılığı və İsveçin ölkəmizdəki səfirliyinin dəstəyi ilə Stokholm şəhərində səfərdə olub.**



Səfər çərçivəsində həm İsveçdə, həm də Azərbaycanda tibb və əczaçılıq sahəsində fəaliyyət göstərən müəssisələr və şirkətlər arasında əlaqələrin qurulması, əməkdaşlıq yolları və müştərək fəaliyyət sahələrinin araşdırılmasına yönəlmiş görüşlər keçirilib.

Qeyd etmək lazımdır ki, tədbirdə İsveçin ən böyük və dünya miqyasında məşhur olan "Astra Zeneca", "CCC Healthcare", "GETİNGE", "HERMES", "SCA", "Mölnlycke Health Care", "Nordic Med Com", "Swedish Healthcare Management", "SECTRA" və s. şirkətləri iştirak edib. Azərbaycan isə bu tədbirdə Azərbaycan Tibb Universiteti ilə bərabər, "Avromed", "Vitta" və s. kimi iri şirkətlər ilə təmsil olunub.

Tədbirdə dosent R.Qabulova "Azərbaycanda səhiyyə sistemi və gələcəyə baxış" adlı məruzə ilə çıxış edib. Azərbaycan səhiyyəsində baş vermiş inkişaf və irəliləyişlər, tibb təhsili sahəsində son illərdə həyata keçirilmiş yeniliklər, universitetdə müasir standartlara uyğun nəzəri və təcrübi biliklərin tədris edilməsi istiqamətində görülmüş işlər haqqında geniş məlumat verib.

Səfərin ikinci günü nümayəndə heyətimiz İsveçin ən məşhur universitetlərindən olan Karolinska Universitetinin qonağı olublar. Görüşdə Karolinska Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Maria G Masucci çıxış edərək, bu ali ocaq haqqında məlumat verib. Tibb Xidmətləri üzrə prorektor, İntegrativ tibb üzrə professor Martin İngvar isə çıxışında universitetin nəinki Avropanın, həmçinin dünyanın ən qabaqcıl ali təhsil qurumlarından biri olduğunu, onun əsas fəaliyyətinin tədris, tədqiqat və onların nəticələrinin tibbi təcrübəyə yönəldiyini vurğulayıb. Beynəlxalq layihələr üzrə koordinator Ylva Olsson universitetin ingilis dilində tədris olunan Bakalavr və Magistr proqramlarını nümayəndə heyətimizin diqqətinə təqdim edib.

Görüşdə dosent R.Qabulova ATU haqda məlumat verib, universitetimizin Karolinska Universiteti ilə bütün sahələrdə əməkdaşlığın qurulmasında maraqlı olduğunu söyləyib.

Görüşdə həmçinin ikitərəfli əlaqələrin qurulması istiqamətində atılacaq addımlar müzakirə edilib, Avropa İttifaqının müxtəlif proqramları çərçivəsində əməkdaşlığın başlanması planlaşdırılıb.

# Hərbi Tibb Fakültəsində Elmi seminar

**Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində elmi işlərin planına uyğun olaraq rezidentlərin və kursantların iştirakı ilə elmi seminar keçirilib.**

Elmi seminarda Müdafiə Nazirliyinin Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin nümayəndəsi Vaqif Dadaşzadə iştirak edib.

Elmi seminarı Hərbi Tibb Fakültəsinin rəisi, tibb xidməti polkovniki Fəxrəddin Ağayev açaraq, iclası aparmaq üçün sözü Hərbi Tibb Fakültəsi rəisinin elmi işlər üzrə müavini, tibb elmləri namizədi, tibb xidməti polkovnik-leytenantı Pərviz Məmmədova verib.





Birinci məruzəçi Hərbi Tibb Fakültəsinin revmatologiya ixtisası üzrə II kurs rezidenti, tibb xidməti leytenantı M.Məmmədov "Vegener qranulomatozu" mövzusunda çıxış etdi. Mövzuda "Vegener qranulomatozu"nun ən son təsnifatı, müasir yanaşma üsulları, klinikası və müasir müalicə metodları haqqında geniş məlumat verildi.

Hərbi Tibb Fakültəsinin rezidentləri R.Xəlilov, E.Rüstəmov, A.Məmmədov və E.Abdullayev məruzəçiyə verdikləri suallara qane edici cavablar aldılar.

İkinci məruzəçi – Hərbi Tibb Fakültəsinin şüa diaqnostikası üzrə II kurs rezidenti C.Nizamov "Kəskin və xroniki pankreatidlərdə radioloji diaqnostikası" mövzusunda çıxış edərək kəskin və xronik pankreatitlərin radioloji diaqnostikasının müasir prinsipləri haqqında ətraflı məlumat verdi. Bu məruzəçinin də çıxışı seminar iştirakçıları tərəfindən yüksək qiymətləndirildi.

**ATU-nun mətbuat xidməti**

# Əliağa Əlizadənin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında tibb elmləri doktoru, professor Əliağa Əlizadənin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirildi.**



Konfransı giriş sözü ilə açan universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev qeyd etdi ki, ölkəmizdə ulu öndərin qoyduğu gözəl bir ənənə var. Həmişə xalqımız, millətimiz, elmimiz, təhsilimiz, səhiyyəmiz qarşısında böyük xidmətləri olan insanların xatirəsi anılır, yubileyləri keçirilir. Bu ənənə universitetimizdə də daim qorunur. Hörmətli rektorumuz universitetimizdə böyük nüfuz qazanmış müəllim və professorlarımızın yubiley mərasimlərinin keçirilməsinə xüsusi diqqət yetirir. Professor Ə.Əlizadənin həyat və fəaliyyəti haqqında qısa məlumat verən prorektor onun 1968-ci ildə ana dilində ilk dəfə nəşr olunan "Uşaq cərrahlığı" dərsliyinin müəllifi olduğunu xatırlatdı. Əliağa Əlizadənin 5 il ərzində ATU-nun tədris işləri üzrə prorektoru vəzifəsində çalışdığını konfrans iştirakçılarının nəzərinə çatdıraraq qeyd etdi ki, professor Ə.Əlizadənin hansı vəzifədə işləməsinə baxmayaraq o həmişə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlmişdir. Prorektor işlədiyi illərdə Ə.Əlizadə gənc kadrların hazırlanmasına çox böyük diqqət ayırırdı, tələbələrə qayğı ilə yanaşırdı.

ATU-nun uşaq cərrahlığı kafedrasının müdiri, professor Çingiz Quliyev professor Ə.Əlizadənin həyat və fəaliyyəti haqqında geniş məruzə ilə çıxış etdi: "Professor Əliağa Məmməd oğlu Əlizadə 1915-ci ildə Dəvəçi (indiki Şabran) rayonunda anadan olmuşdur.

1934-cü ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1939-cu ildə həmin fakültəni bitirərək Dəvəçi rayonunda həkim-cərrah kimi fəaliyyətə başlamışdır. O, Böyük Vətən müharibəsinin ilk illərindən cəbhəyə səfərbər olmuş və müharibənin sonuna qədər tibbi hissələrdə cərrah kimi fəaliyyət göstərmişdir. Öz dəyanəti, igidliyi, şəfalı cərrah bıçağı ilə düşmən üzərindəki qələbəmizə töhfələr verən Əlizadə bir sıra döyüş orden və medalları ilə təltif olunmuşdur. 1945-ci ildə mayor rütbəsi ilə Vətənə qayıdan Ə.Əlizadə bir müddət Bakı Hərbi Qarnizonunda həkim işləmişdir. 1946-cı ildə ATİ-nin uşaq cərrahlığı və ortopediyası kafedrasına assistent vəzifəsinə seçilmişdir. 1953-cü ildə tibb elmləri namizədi alimlik dərəcəsi alan Ə.Əlizadə 1957-ci ildə "Uşaqlarda kəskin hematogen osteomielit zamanı qanın plazmasında zülal fraksiyasında baş verən dəyişikliklər" mövzusunda doktorluq dissertasıyası üzərində elmi iş aparmağı qərara alır və 1965-ci ildə həmin mövzunu müdafiə edərək tibb elmləri doktoru adına layiq görülür, uşaq cərrahlığı kafedrasının professoru seçilr. Beləliklə, Ə.Əlizadə uşaq cərrahlığı ixtisası üzrə respublikamızda ilk dəfə tibb elmləri doktoru və professoru olmuşdur".





Sözünə davam edən məruzəçi bildirdi ki, professor Ə.Əlizadə istedadlı alim, mahir cərrah, gözəl müəllim olmaqla bərabər, həm də bacarıqlı səhiyyə təşkilatçısı və millətini sevən ziyalı idi. Həmin dövrdə Tibb İnstitutunun demək olar ki, bütün kafedralarında ana dilində dərsliklərin olmaması və yaxud azlığı azərbaycanlı tələbələr üçün çox böyük çətinliklər yaradırdı. Bütün problemləri nəzərə alan, professor Ə.Əlizadə 1968-ci ildə ilk dəfə ana dilində "Uşaq cərrahlığı" dərsliyini yazdı. O, 100-dən çox elmi məqalənin, bir dərsliyin, iki dərs vəsaitinin, monoqrafiyanın, bir neçə səmərələşdirici təklifin müəllifi olmuşdur.

Professor Ə.Əlizadənin kafedraya rəhbərlik etdiyi illərdə (1971-1976) kafedranın keçmiş sovet respublikalarının uşaq cərrahlığı kafedraları arasında olan elmi əlaqələr və tələbə elmi cəmiyyətlərinin fəaliyyəti xeyli güclənmişdir. O, 1971-ci ildən Azərbaycan Uşaq Cərrahlar Cəmiyyətinin sədri, Ümumittifaq Cərrahlar Cəmiyyətinin üzvü olmuşdur. Professor Ə.Əlizadə 1973-cü ildən 1976-cı ilə kimi (ömrünün sonuna qədər) N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun tədris işləri üzrə prorektoru vəzifəsində çalışmışdır.

Professor Ə.Əlizadənin xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan SSR Ali Sovetinin və Səhiyyə Nazirliyinin fəxri fərmanları və "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilmişdir.

Görkəmli alim, istedadlı cərrah, professor Ə.Əlizadə 29 oktyabr 1976-cı ildə 61 yaşında kəskin ürək tutmasından vəfat edib.

Konfransda Uşaq cərrahlığı kafedrasının professoru Elmira Pənahova, Uşaq cərrahlığı kafedrasının dosenti Qismət Əliyev, Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Çərkəz Cəfərov xatirə çıxışları etdilər, görkəmli alimin Azərbaycan tibb elminə əvəzsiz xidmətlərindən söhbət açaraq onun əziz xatirəsinin tələbələri və yaxından tanıyanları tərəfindən daim yad olunacağını dilə gətirdilər.

Ə.Əlizadənin ailə üzvləri adından çıxış edən Azərbaycan Ortopediya və Travmatologiya Elmi-Tədqiqat İnstitutunun "İrinli Cərrahiyyə" şöbəsinin rəhbəri, mərhumun oğlu professor Çingiz Əlizadə atasının xatirəsinə göstərilən bu ehtirama görə universitetin rəhbərliyinə və o cümlədən tədbir iştirakçılarına öz dərin minnətdarlığını bildirdi.

Elmi-praktik konfransın işi məruzələrlə davam etdirildi.

**A.KAMRANOĞLU**

# Tədris-Terapevtik Klinikada seminar keçirilib

**Oktyabrın 28-də Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasında Türkiyənin Mərmərə Universitetinin Qastroenterologiya İnstitutunun direktoru, dosent dr. Yusuf Yılmazın seminarı baş tutub.**

Seminarı giriş sözü ilə açan Tədris Terapevtik Klinikanın baş həkimi, dosent Ramin Bayramlı seminar iştirakçılarını salamladı, klinikanın müasir avadanlıqlarla təchiz olunmuş diaqnostik bölmələrindən söz açdı, diaqnostik laboratoriyanın Avropanın elmi cəmiyyətləri ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırdı. Baş həkim qaraciyər xəstəliklərinin müalicəsində ən son texnologiya sayılan "Fibroscan" aparatı ilə bağlı Yusuf Yılmazın son 3 gün ərzində Klinikada keçirdiyi treninq və müayinə etdiyi xəstələr barədə məlumat verərək seminarı aparmaq üçün sözü universitetin kafedra müdiri, professor-qastroenteroloq Əlihüseyn Hidayətova verdi.



Əlihüseyn Hidayətov qaraciyər xəstəliklərinin müayinəsində referens üsul hesab olunan biopsiyanın ağır proses olduğunu bildirərək "Fibroscan" aparatının bu tip müayinələrdə daha müasir və rahat texnologiya olduğunu diqqətə çatdırdı, qaraciyərin xroniki xəstəliklərinin gedişindən danışdı.

Y.Yılmaz da hər kəsi salamlayaraq ölkəmizə səfərindən məmnun qaldığını söylədi. "Fibroscan" aparatının üstünlüklərindən söz açan türkiyəli mütəxəssis bu aparat vasitəsilə qaraciyərin daha böyük hissəsini qısa zamanda müayinə etməyin mümkünlüyünü, aparatın müxtəlif yaş və çəkidə olan pasiyentlər üçün nəzərdə tutulmuş müayinə başlıqlarının olduğunu söylədi. Əksər Avropa ölkələrində hepatitdən əziyyət çəkən xəstələrin müayinəsində artıq biopsiya üsulu əvəzinə "Fibroscan"dan istifadə olunduğunu diqqətə çatdırdı. O, həmçinin "Fibroscan" aparatının qaraciyərin yağlanmasında da daha dəqiq nəticə əldə etməyə imkan yaratdığını vurğuladı. Sonda dosent tərəfindən seminar iştirakçıları üçün "Fibroscan" aparatının iş prinsipi ilə bağlı növbəti xəstə üzərində təlim təşkil olundu.

# Tibbi Şuranın növbəti yığıncağında

**Oktyabrın 15-də ATU-nun Tədris Terapevtik Klinikasının Tibbi Şurasının növbəti yığıncağı keçirilib. Toplantını açan klinikanın direktoru, professor Surxay Musayev gündəlikdə duran məsələləri şura üzvlərinin diqqətinə çatdırdı, klinikada çalışan hər bir kəsə fəaliyyətində uğurlar dilədi.**

Sonra klinikanın baş həkimi, dosent Ramin Bayramlının həftəlik hesabatı dinlənildi. O, həftə ərzində klinikanın şöbələrinə stasionar və gündüz rejimində daxil olmuş və çıxmış pasientlərin sayını slaydlar vasitəsilə nümayiş etdirdi. Baş həkim çıxışında xəstə sahibləri tərəfindən kənar mütəxəssislərin klinikaya dəvət olunmasına, stasionar və gündüz stasionar xəstə qəbulu zamanı yol verilən bir sıra nöqsanlara da diqqət çəkərək, klinikanın daxili nizam- intizam qaydalarına düzgün riayət olunması üçün çağırış etdi.

Bundan başqa klinikanın poliklinika şöbəsinin müdiri Təranə Musayeva "Klinikada ambulator qəbulun sənədləşdirilməsi" barədə 1 il ərzində görülən işlərin faiz göstəricilərini açıqladı. O, qeyd etdi ki, klinikaya yeni daxil olmuş xəstələrin xəstəlik tarixlərinin tərtibi, o cümlədən ambulator vərəqin yazılması və həmin vərəqin kodlaşdırılması, kliniki diaqnozun təsdiqi, xəstələrin stasionara yerləşdirilməsi və laborator müayinələrə göndərilməsi haqqında yazılan bəzi sənədlərdə anlaşılmazlıqlar olur. Sözünə davam edən şöbə müdiri ambulator qəbulun sənədləşdirilməsi ilə bağlı mövcud qaydaları toplantı iştirakçılarının nəzərinə çatdırdı və bu qüsurların gələcəkdə bir daha təkrarlanmamasına dair fikirlərini bölüşdü.







Toplantıya yekun vuran professor S.Musayev qarşıda duran bir sıra cari məsələlər haqqında da məlumat verdi. Direktor bildirdi ki, gələn ildən etibarən klinikamız elektron səhiyyə sisteminə keçəcək və bu istiqamətdə hərtərəfli işlər aparılır.

**MƏNSUR**

# Tədris Cərrahiyyə Klinikasında elmi-praktik seminar keçirilib

**26 və 27 oktyabr 2015 tarixlərində Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahi Klinikasında DuRad Exchange (Dutch Radiology Exchange - Hollandiya Radiologiya Mübadiləsi) proqramı çərçivəsində Lighthous Consulting şirkətinin dəstəyi ilə xarici mütəxəssislərinin iştirakı ilə elmi-praktik seminar keçirilib.**





Dr. Allard Olthof və Dr. Peter Fahner qaraciyər xəstəlikləri, qarında ağrı, bazu və bud-çanaq oynaqlarının xəstəlikləri, insult, yayılmış skleroz və süd vəzisi xəstəlikləri zamanı radioloji müayinə üsullarının (USM, KT, MRT) müqayisəli xarakteristikasına həsr olunmuş məruzələrlə çıxış ediblər. Mühazirə interaktiv şəkildə aparılıb və auditoriya tərəfindən böyük maraqla qarşılanıb. ATU-nun radiologiya, cərrahiyyə, travmatologiya və ortopediya, nevrologiya, onkologiya kafedraları və müvafiq şöbələrin həkimləri, rezidentləri və 6-cı kurs tələbələri müzakirələrdə fəal iştirak edərək, çoxsaylı suallar veriblər.

ATU-nun Beynəlxalq Əlaqələr üzrə prorektoru dosent Rəhimə Qabulova, Tədris-Cərrahi Klinikanın direktoru, AMEA-nın müxbir üzvü professor Nuru Bayramov və ATU-nun Beynəlxalq Əlaqələr şöbəsinin müdiri dosent Nadir Zeynalov qonaqlarla görüşüblər. Görüş zamanı bu cür tədbirlərin əhəmiyyətindən bəhs olunub və gələcəkdə əməkdaşlığın davam etdirilməsinin vacibliyi xüsusi vurğulanıb.

# Tibb Universitetinin həkimləri ana bətnində ikən bədəninə maye yığılan uşağı həyatda saxladılar

**Səhiyyə sahəsində dövlət proqramları uğurla yerinə yetirilir. Onların nə dərəcədə vacib olduğunu təkcə bir neçə rəqəmlə göstərmək olar. 200 mindən çox şəkərli diabet xəstəsi illər boyu, daim dövlət hesabına bütün lazımi dərmanları alır. Əgər vaxtilə diabetli uşaqlara adi şprisqələm verilməsi problem idisə, indi onlara dərman insulin pompası vasitəsilə verilir. Bu isə körpələri gün ərzində bir neçə dəfə insulin iynəsi vurmaqdan azad edir.**



II mama-ginenokologiya şöbəsinin müdiri, uzman-doktor Turab Canbaxışov qeyd edir ki, hələ körpə ana bətnində ikən həkimlər bu patologiyadan xəbərdar olublar: "Ana 7 aylıq hamilə ikən gəlmişdi. Həmin vaxt müayinələr göstərdi



ki, ana bətnində uşağın döş qəfəsinin içinə, ağciyər və ürəyinin ətrafında maye yığılır. Bu da ürəyin fəaliyyətinə əngəl olmuş, ürək çatışmazlığına gətirib çıxarmışdı. Bildiyimiz kimi, ürək qanı təzyiqlə bütün damarlara paylaşdırmaqla işləyir. Lakin yığılan maye həmin orqanı sıxdığına görə, qan dövranı pozulmuş, ürək ətrafı ilə yanaşı, qarına da maye yığılmışdı və mayenin miqdarı getdikcə daha da artırdı. Bu, həm də dəri ödemi (şişkinliyinin) artmasına səbəb olurdu. Xəstə məhz belə vəziyyətdə bizə üz tutmuşdu".

Həkimin sözlərinə görə, ana 5 aylıq hamilə ikən uşağın döş qəfəsinə maye yığılmağa başlayıb. Xəstə Türkiyəyə üz tutub, orada döş qəfəsinin hər iki tərəfinə stend taxdırıb ki, yığılan maye uşaqlıq boşluğundan çölə çıxsın. Lakin müəyyən müddət sonra stendlərin yolu tutulub:

"Biz diaqnozu qoyduqdan sonra təcili bir müdaxilə planlaşdırdıq. Yəni, ana bətnində uşağın döş qəfəsinə daxil olub, həm sağdan, həm də soldan bu mayeni çəkmək lazım idi ki, ürək rahatlansın, fəaliyyəti bərpa olunsun və ağciyərlər açılaraq inkişafı davam etdirsin. Biz düz 3 dəfə bu proseduru həyata keçirdik. Bunlar hamiləliyin 35-ci, 36-cı və 37-ci həftəsində gerçəkləşdirildi. Prosedur zamanı bir sıra çətinliklərlə də üzləşirdik. Məsələn, bəzən uşaq dönürdü, onda məcburən ananı gəzdirib uşaq əvvəlki vəziyyətə qayıdandan sonra proseduraya davam edirdik".

ATU həkim briqadasının müdaxiləsi nəticəsində bu körpə heç bir ürək və ağciyər qüsuru olmadan dünyaya göz açıb. Uşaq doğulduqda yalnız ürəyin fəaliyyəti ilə bağlı müəyyən problemlər olub ki, indi həmin problemlər də nizama salınıb. Hazırda bu körpə ATU həkimlərinin nəzarəti altındadır və hər ay müayinə olunur.

# Bu tədris ilində Tibb Universitetinin 300-dək tələbəsi xaricdə təcrübə keçib

**Hazırda 11 elmi tədqiqat institutu, Bakıda fəaliyyət göstərən 10 gigiyena-epidemiologiya mərkəzi və 67 müalicə-profilaktika müəssisəsi, 9 aptek, 60 mərkəzi rayon xəstəxanası, Naxçıvan Muxtar Respublikasındakı səhiyyə şöbələrinin tabeçiliyində olan bütün tibb müəssisələri, Azərbaycan Tibb Universitetinin (ATU) elmi tədqiqat mərkəzi, kliniki-biokimyəvi laboratoriyası və klinikaları, həmçinin bir sıra özəl tibb müəssisələri təcrübə bazaları kimi tələbələrin istifadəsinə verilib**



Bundan əlavə, Bərdə, Cəlilabad, Füzuli, Qazax, Qəbələ, Quba, Lənkəran, Siyəzən, Şamaxı, Şirvan və Zaqatala müalicə diaqnostika mərkəzlərindən, habelə Mərkəzi Neftçilər Xəstəxanasından da təcrübə bazası kimi istifadə olunub.

Bu faktlar 2014-2015-ci tədris ilində ATU tələbələrinin istehsalat təcrübəsinin yekunlarına həsr olunmuş elmi şurada açıqlanıb.

Eyni zamanda, səhiyyə nazirinin əmrinə əsasən Analitik Ekspertiza Mərkəzindən, "Azerimed MMC", "Dokta MMC", "Maymed MMC" apteklər şəbəkəsindən əczaçılıq fakültəsinin tələbələri üçün təcrübə bazası kimi istifadə edilib.

İclasda qeyd olunub ki, bu tədris ilində 300-ə qədər tələbə xaricdə təcrübə keçib. Ümumiyyətlə 2007-2008-ci tədris ilindən indiyə qədər Türkiyədə 1458 nəfər, Avropa ölkələrində 160 nəfər (onlardan 106 nəfəri Almaniyada), Seçenov adına I Moskva Dövlət Tibb Universitetində 16 nəfər təcrübə keçib.

**ATU-nun mətbuat xidməti**

# Kafedranın kitab rəfi

**Tibb elmi daim inkişaf etməkdə və yeniləşməkdədir. Bu dinamik prosesə qoşulmaq, dünya tibb elminin hər bir yeniliyini, nailiyyətini mənimsəmək, bu bilikləri tələbələrə çatdırmaq üçün dərsliklərin və dərs vəsaitlərinin yazılması günün ən vacib məsələlərindən biridir.**

*S.C.Əliyev, M.X.Əliyev: "Patoloji fiziologiyadan Atlas" Rəyçilər: AMEA- nın müxbir üzvü, professor, F.İ.Cəfərov, professor M. M.Cahangirov; Elmi redaktor : dosent N.C.Mikayılzadə (Dərslik) Bakı , "Azərbaycan"nəşriyyatı, 2008.- 472 səh.*




Atlas patoloji fiziologiya fənninin tədris proqramına uyğun tərtib edilmiş və tibb universitetinin tələbələri üçün nəzərdə tutulmuşdur. Mövzular əyani materiallar – sxem, cədvəl, alqoritm, fotoqrafiya və s. formalarda təqdim olunan kitaba əlavə edilmiş, kompakt disk isə onun mətnini tam əks etdirir.

Dərsiyin əsasında klassik patofiziologiyanın nailiyyətləri ilə yanaşı, ölkə patofizioloqlarının elmi nailiyyətləri və müəlliflərin patofiziologiya kafedrasındakı çoxillik müəllimlik təcrübələri durur.

Kitabın fərqli xüsusiyyətlərindən biri də odur ki, hər mövzu haqqında məlumatlar ayrıca səhifələrdə verilir. Bu mövzunun əsas məsələlərini assosiativ qavramadan da istifadə etməklə qısa müddətdə əhatə etməyə və yadda saxlamağa imkan verir. Atlas tələbələrə praktik məşğələlərə və imtahanlara hazırlaşmaqda yardım edir. Klinistlər isə kitabdan məlumatlar sorğusu kimi istifadə edə bilərlər.

"Patoloji fiziologiya Atlas"ı üç dildə - Azərbaycan, ingilis və rus dillərində oxuculara təqdim edilən ilk kitabdır. Belə bir atlasın tərtib edilməsi əsas iki zərurətdən irəli gəlmişdir. Birincisi, son illərdə yaxın və uzaq xaricdə Azərbaycan Tibb Universitetinə təhsil almağa gələn tələbələrin sayının artması, ikincisi isə müstəqil respublikamızın beynəlxalq əlaqələrinin genişlənməsidir.

*S.C.Əliyev, Y.C.Məmmədov, M.X.Əliyev, İ.H.Musayev, M. A.Pənahi, N.C.Mikayılzadə, Ə.Ə.Quliyeva, S.H.Əliyev, G.H.İbrahimova, M.B.Talışinskaya, A.C.Əliyeva, T.R.Əliyeva, C.T.Əliyeva, S.A.Səmədova, S.İ.Hacıyeva, L.X.Səfərəliyeva: "Patoloji fiziologiya" (Testlər); Rəyçilər: professor M.M.Cahangirov, professor A.M.Məmmədov; Bakı – "Təbib", 2011.- 310 səh.*

Tibb elmi daim inkişaf etməkdə və yeniləşməkdədir. Bu dinamik prosesə qoşulmaq, dünya tibb elminin hər bir yeniliyini, nailiyyətini mənimsəmək, bu bilikləri tələbələrə çatdırmaq üçün dərsliklərin və dərs vəsaitlərinin yazılması günün ən vacib məsələlərindən biridir.







Patoloji fiziologiya kafedrasının müdiri, professor Sabir Əliyevin rəhbərliyi ilə kafedranın professor- müəllim heyətinin birgə tərtib etdikləri patoloji fiziologiyadan testlər kitabı da bu zərurətdən yaranmışdır. Kitabda ümumi nozologiya, tipik patoloji proseslər, müxtəlif orqan və sistemlərin patologiyası bölmələrinin materiallarına dair suallar tərtib edilmişdir. Testlərin hazırlanması zamanı son illərdə alimlərin rəğbətini qazanmış ən populyar və müasir qaynaqlara istinad olunmuşdur. Testlər vasitəsilə tələbələrdə yalnız müxtəlif patoloji proseslər haqqında elmə məlum olan nəzəri biliklərin formalaşması deyil, eyni zamanda konkret klinik situasiyalarda bu bilikləri nə dərəcədə tətbiq edə biləcəkləri də araşdırılır. Burada təqdim edilən testlər tələbələrə öyrənmək, düşünmək və qərar vermək vərdişini aşılayır, müəllimlərə isə tələbələrin nəzəri və praktik bilik səviyyəsini qiymətləndirmək imkanı verir.




Azərbaycan dilində ilk dəfə olaraq tərtib edilmiş "Patoloji fiziologiya" testlər kitabı rus və ingilis dillərinə tərcümə olunmuşdur.

Bu kitabdan təkcə Azərbaycan Tibb Universitetinin tələbələri deyil, həm də tibbin müxtəlif sahələri üzrə ixtisas alan (rezidentura və s.) həkimlər istifadə edə bilər.




*S.C.Əliyev, M.X.Əliyev; Müəlliflər heyəti: M. A. Pənahi, N.C.Mikayılzadə, Ə.Ə.Quliyeva, S.H.Əliyev, G.H.İbrahimova, A.C.Əliyeva, M.B.Talışinskaya, S.A.Səmədova, C.T.Əliyeva, S.İ.Hacıyeva, Ş.M.Hüseynova, T.R.Əliyeva: "Patoloji fiziologiya" Elmi redaktorlar: ə.e.x.professor S.C.Əliyev, M.X.Əliyev;Rəyçilər: AMEA -nın müxbir üzvü, ə.e.x. professor, Z.Ö.Qarayev, RTA-nın akademiki, professor A.M. Məmmədov, b.ü.e.d. Ü.F.Həşimova, professor Ə.H.Əliyev, professor Ə.B.Həsənov; (Dərslik) I-II hissə; Bakı – "Təbib", 2015.- 628 səh.*

Patoloji fiziologiya funadamental elm kimi tibb təhsilində mühüm yer tutur. İnteqrativ tibbi–bioloji elm olan patoloji fiziologiya nəzəri- tibbi elmlərlə klinik elmlər arasında əlaqə yaratmaqla tələbələrdə həkimlik təfəkkürünün formalaşmasına yardım edir. Ona görə də son zamanlar əksər ölkələrdə yuxarı kurs tələbələrinə klinik patofiziologiyanın tədris olunması mərsədəuyğun hesab edilir.

Hal-hazırda nəinki MDB ölkələrində, həm də Amerika, Avropa və Kanadada patoloji fiziologiya fənninin ali tibb təhsilində tədrisinə böyük əhəmiyyət verilir.

Təqdim edilən yeni dərslik tədris proqramına uyğun olraq mövzular üzrə qurupladırılmış və patofiziologiya fənni üzrə tədris prosesinə rəhbərlikedici vəsait formasında yazılmışdır. Kitabda ümumi nozologiya və tipik patoloji proseslərə aid olan mövzular geniş və müasir səviyyədə şərh edilmişdir. Bu dərsliyin I hissəsində xəstəliklərin səbəbləri, inkişaf mexanizmləri, gedişi, nəticələri, müalicə və profilaktikasının əsas prinsipləri, müxtəlif patologiyalar üçün səciyyəvi olan ümumi qanunauyğunluqlar, sağlamlığın mexanizmləri geniş şərh edilmişdir.

Əvvəlki dərsliklərdən fərqli olaraq, kitaba yeni mövzular ("İnfeksion proses", "Narkomaniya və alkoqoholizm") da əlvə olunmuşdur. Kitabdakı mövzular müasir məlumatlardan istifadə edilməklə yenidən işlənmiş, daha ətraflı şərh edilmişdir. Dərslikdəki mövzuların daha yaxşı mənimsənilməsi üçün mətndəki şəkil və sxemlər rəngli verilmişdir. Bütün bunlar dərsliyin ali tibb təhsili alan tələbələrin patoloji fiziologiya fənninin öyrənilməsində önəmli yer tutacağına əsas verir.

Kitabdan təkcə ali tibb təhsili alan tələbələr deyil, həm də baza ali tibb təhsili əsasında rezidenturaya qəbul olmaq istəyən məzunlar, müxtəlif klinikalarda və elmi-tədqiqat müəssisələrində çalışan həkimlər də istifadə edə bilərlər.

*S.C.Əliyev, H.M.Hacıyeva, N.C.Mikayılzadə "Tibbi biliklərin əsasları" Elmi redaktor: professor F. Y. Talıbov; Rəyçilər: AMEA- nın müxbir üzvü, professor, F.İ.Cəfərov, professor C.H.Təqdisi, professor Ə.M.Hüseynov, dosent İ.H.Musayev; (Dərslik) Bakı – "Təbib", 2013.- 520 səh.*




Tibb elminin qısa inkişaf tarixi ilə başlanan kitab 19 fəsildən ibarətdir. Orqanizmin quruluşunu, ayrı-ayrı orqanların funksiyasını, bilmədən onun sağlamlığını qorumaq çox çətindir. Odur ki, kitabda əvvəlcə orqanizm və onun quruluşu, funksiyalarının tənzimlənməsi, mühit amillərinin insan orqanizminə təsiri, sağlamlıq və xəstəlik haqqında məlumat verilir, sonra isə ardıcıl surətdə orqanizmin ayrı-ayrı sistemlərinin ən geniş yayılmış xəstəlikləri təsvir olunur, onların müalicəsi, profilaktikası, ilk yardım göstərilməsi üsulları aydınlaşdırılır. Sonrakı fəsillərdə ekstremal vəziyyətlər, immun sisteminin patologiyası (o cümlədən, dövrün qlobal probleminə çevrilmiş QİÇS- qazanılmış immun çatışmazlığı sindromu), infeksion xəstəliklər, şiş xəstəlikləri, maddələr mübadiləsinin pozulması ilə əlaqədar xəstəliklər sosioloji bəla olan zərərli vərdişlər və onlarla mübarizə yolları, xəstələrin şəxsi gigiyenası və xəstələrə qulluq, ən çox işlənən dərmanlar və s. haqqında məlumat verilir.

Orqanların xəstəliklərinə uyğun olaraq sınıq və çıxıqlarda, diş ağrılarında, qanaxmalarda, yaralarda, boğulmalarda, zəhərlənmələrdə, sinir xəstəlikləri tutmalarında, donma, elektrik zədələnməsi, günvuma və s.zamanı ilk yardım tədbirləri aydınlaşdırılmışdır.

Bir sözlə, kitabda 100- dən artıq xəstəlik, onların profilaktikası və müalicəsi haqqında məlumat vardır.

Cəmiyyətimizin bəlalarından biri də əhalinin müəyyən qisminin öz sağlamlığının ekstrasens adlandırılan hər cür fırıldaqçılara etibar etməsidir. Odur ki, kitabın sonuncu fəsli telepat və ekstrasenslərin fəaliyyətinin təhlilinə həsr edilmişdir.

Ali məktəblərin bütün fakültələrində tədris edilən "Tibbi biliklərin əsasları"bütün ali məktəblərdə tədris edilən fənn proqramı əsasında yazılmış, müəllim və tələbələr üçün nəzərdə tutulmuşdur.

Kitabda hər bir ziyalı üçün ən lazımlı tibbi biliklər aydın, sadə dildə verilmişdir. Dərslik ali məktəb tələbələri ilə yanaşı, sağlamlığını düşünən hər kəs üçün çox faydalıdır.

*S.C.Əliyev, İ.H.Musayev: "Patoloji fiziologiyadan situasiya məsələləri" Rəyçi: AMEA -nın müxbir üzvü, professor, F.İ.Cəfərov; Elmi redaktor: professor C.T.Məmmədov ( Dərs vəsaiti) Bakı – "Təbib", 2010.- 282 səh.*




Patoloji fiziologiyanın əsas vəzifəsi orqanizmdə yaranan xəstəliklərin səbəblərini, inkişaf mexanizmini, gedişini, nəticələrini və patoloji proseslər üçün səciyyəvi olan ən ümumi qanunauyğunluqları öyrənməkdir. Bununla yanaşı, tələbələrdə tibbi - nəzəri bilikləri klinik şəraitdə tətbiq etmək vərdişinin yaradılması da vacibdir. Ona görə də patoloji fiziologiyanın metodik işləmələrinə situasiya məsələləri daxil edilmşdir. Situasiya məsələlərini həll edən tələbə klinik- laborator göstəriciləri dəqiq təhlil edib, xəstəyə düzgün diaqnoz qoya bilir, eyni zamanda müalicə prinsipləri haqqında olan biliklərini daha da möhkəmləndirir. Situasiya məsələləri tələbələrin həm auditoriyada, həm də auditoriyadan kənarda sərbəst işləmələri üçün nəzərdə tutulmuşdur. Klinik- patofizioloji istiqamətdə tərtib edilmiş situasiya məsələləri həm tələbələrin sərbəst işləməsinə, həm də patofiziologiyadan olan biliklərinə özünün nəzarət etməsinə imkan verir.

Tibb Universitetində mütəxəssis hazırlığının çoxpilləli sistem üzrə aparılması və gələcək həkimlərin fundamental hazırlığının daha da yaxşılaşdırılması ilə əlaqədar olaraq, tələbələrdə real klinik situasiyanı patofizioloji baxımdan təhlil etmək və patoloji anlayışları daha da dərinləşdirmək vacibdir. Bütün bunlar situasiya məsələləri həllinin çox əhəmiyyətli olduğunu bir daha təsdiqləyir.

Kitab Azərbaycan Səhiyyə Nazirliyinin təsdiq etdiyi tədris proqramına uyğun olaraq, mövzular üzrə qruplaşdırılmış və sonda hər bəhsin bəzi məsələlərinin düzgün həlli üçün nümunələr verilmişdir.

Dilimizdə ilk dəfə yazılan dərs vəsaiti bu fənn üzrə ali tibb təhsili alan tələbələr, rezidentlər, aspirantlar, klinik ordinatorlar və həkimlər üçün nəzərdə tutulmuşdur.

**Hazırladı: M.ƏLƏKBƏRLİ**

# ÜMUMİ PROFİLLİ STOMATOLOGİYAYA AİD DİLİMİZDƏ İLK DƏRSLİK

**Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika, pediatriya, tibbi-profilaktika fakültələri üçün stomatologiya kafedrası uzun illərdən bəri fəaliyyət göstərməsinə baxmayaraq bu sahədə müvafiq dərsliyin olmaması fənnin tədrisində və tələbələr tərəfindən mənimsənilməsində müəyyən çətinliklər yaradırdı.**




Doğrudur, ATU-nun stomatologiya fakültəsi tələbələrinin tədris proqramına uyğun şəkildə yazılmış terapevtik, ortopedik, cərrahi stomatologiyaya aid dərsliklər mövcuddur, lakin müalicə-profilaktika, pediatriya, tibbi-profilaktika fakültələri tələbələrinin proqramları stomatologiya fakültəsi tələbələrinin proqramlarından bir qədər fərqləndiyinə görə həmin fakültələrin tələbələri üçün xüsusi dərsliyin yazılmasına ciddi ehtiyac var idi.

Bu ehtiyacı ödəmək məqsədilə kafedranın müdiri professor T.Hüseynova və müəllimlər–T.Talıbova, R.Şadlinskaya tərəfindən qələmə alınan və bu günlərdə işıq üzü görən Azərbaycan dilində «Stomatologiya» adlı ilk dərslik bu sahədə tibb təhsilinin tədrisini yaxşılaşdırmaq üçün məqsədəuyğun hesab edilən mühüm bir yenilikdir.

Hal-hazırda çapdan çıxmış 188 səhifədən ibarət «Stomatologiya» dərsliyi müalicə-profilaktika, pediatriya, tibbi-profilaktika fakültələrinin tələbələri üçün nəzərdə tutulmuş plan və tədris proqramının tələblərinə tam cavab verərək mövzuların yığcamlığı və konkretliyi ilə diqqəti cəlb edir.

Kitab «Ön söz»dən, «Giriş»dən, stomatologiya elminin inkişaf tarixinə aid məlumatdan və 16 fəsildən ibarətdir.

Beləliklə, Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika, pediatriya, tibbi-profilaktika fakültələri üçün ilk dəfə təqdim olunan «Stomatologiya» dərsliyindən stomatologiya fakültəsinin tələbələri, rezidentlər, həkim-stomatoloqlar və müxtəlif profilli həkimlər də istifadə edə bilər.

**Esmira xanım TARIVERDİYEVA,**
*dosent*

# Səyyarə Məmməd qızı Mollazadə

**Azərbaycan elminə ağır itki üz vermişdir. Oktyabrın 19-da filologiya elmləri doktoru, professor S.Mollazadə uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib.**



Səyyarə xanım 1933-cü il yanvarın 22-də Qax rayonunun məşhur İlisu kəndində qulluqçu ailəsində anadan olmuşdur. Atasının işi ilə bağlı Bakıda yaşamalı olan gənc qız 1950-ci ildə 132 saylı məktəbi bitirib, Azərbaycan Dövlət Universitetinin (indi BDU) filologiya fakültəsinə daxil olur. 1954-cü ildə universiteti uğurla bitirən Səyyarə bir müddət müəllim işləmiş, ailə qurmuş, 1962-ci ildə Azərbaycan dövlət Pedaqoji İnstitutunun Azərbaycan dilçiliyi kafedrasının aspiranturasına daxil olmuşdur.

Səyyarə xanım namizədlik dissertasiyasını müdafiəyə təqdim etdikdən sonra–1965-ci ildə Azərbaycan Tibb İnstitutunun Azərbaycan və rus dilləri kafedrasına müəllim vəzifəsinə göndərilib. O, 1966-cı ildə elmlər namizədi alimlik dərəcəsi almaq üçün "Qax rayon şivələri" mövzusunda dissertasiyasını uğurla müdafiə edib. 1969-cu ildə gənc müəllimə yüksək etimad göstərilərək Azərbaycan dili və rus dilləri kafedrasına rəhbərlik etmək tapşırılıb. S.Mollazadə 2008-ci ilədək həmin vəzifəni ləyaqətlə yerinə yetirib. (Kafedraya rəhbərlikdən o, öz xahişi ilə gedib). Müdir işlədiyi 40 ilə yaxın müddət ərzində Azərbaycan dilinin rus bölməsində, rus dilinin Azərbaycan bölməsində tədrisinin elmi-nəzəri və tədris-metodiki problemləri ilə bağlı tədbirlər həyata keçirmiş, dərslik, dərs vəsaiti, proqram, əyani vasitələr və savadlı kadrlar hazırlanmasında köklü dönüş yaratmışdır. (Professor S.Mollazadə 10-dan çox elmlər namizədi hazırlamışdır). 1984-cü ildə ayrıca Azərbaycan dili kafedrası yaradıldıqdan sonra bu işlər daha da genişləndirilmiş, ana dilimizin ikinci dil kimi tədrisinin mühüm məsələləri diqqətdə saxlanılmışdır. Səyyarə xanım kafedraya təkcə müdirlik etməmişdi; işçiləri özünə övlad, bacı, qardaş bilərək onların qayğılarını öz dərd-səri kimi qəbul edirdi. Kafedrasını ikinci ailəsi bilən Səyyarə xanım ömrünün sonuna kimi beləcə qalmış, 2012-ci ildən istirahətdə olsa da, kollektivlə əlaqəni kəsməmişdi. Bütün bunlara görə də kafedrada həmişə işgüzar mühit olmuş, əməkdaşlar Səyyarə xanımı özlərinin səmimi məsləhətçisi, qayğıkeş himayədarı bilmişlər.

Elmi araşdırmanı özünün vacib həyat amalı hesab edən S.Mollazadə 1970-ci ildən dilçilikdə çətin sahələrdən sayılan toponimiya üzrə gərgin tədqiqatlar aparmış, 1979-cu ildə "Azərbaycanın Şimal rayonlarının toponimiyası" adlı dissertasiyasını müdafiə etmişdir. Filologiya elmləri doktoru alimlik dərəcəsi alan dosent S.Mollazadə 1988-ci ildə kafedranın professoru vəzifəsinə seçilmişdir.

Bacarıqlı təhsil və elm təşkilatçısı olan S.Mollazadə tədqiqatçılıq işindən bir an da kənarda qalmamışdı. O, 150-yə yaxın məqalə, dərslik, monoqrafiya, publisist yazı müəllifi idi. Səyyarə xanımın Respublikada keçirilən dilçiliyə aid elmi konfranslardakı çıxışlarını mütəxəssislər dərin maraqla qarşılayardılar. Professor S.Mollazadə keçmiş SSRİ-nin Moskva, Kiyev, Tiflis, Ufa, Leninqrad, Volqoqrad, Daşkənd kimi şəhərlərində, qardaş Türkiyədə elmi ezamiyyətlərdə olmuşdu. Səyyarə xanımın Azərbaycan toponimiyasına aid çoxsaylı araşdırmalarının nəticələrindən 2000-ci ildə nəfis şəkildə nəşr olunmuş "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti" kitabında geniş istifadə edilmişdir.

Respublika ziyalıları arasında dərin nüfuz sahibi olan Səyyarə xanım uzun müddət bir çox elmi şuraların, komissiyaların üzvü kimi iş aparmışdır. Azərbaycan dilinin ümumi məsələlərinə və daha çox onomalogiyaya aid 10-larla namizədlik və doktorluq dissertasiyasının rəsmi opponenti olmuş, öz elmi mülahizələri ilə elmimizin inkişafına layiqli kömək etmişdir.

Professor S.Mollazadə işlədiyi kollektivdə böyük nüfuz sahibi idi, onun şərəfli və təmənnasız zəhməti daim qiymətləndirilmiş, dəfələrlə Universitet rektorunun Fəxri Fərmanına və mükafata layiq görülmüşdür. Səyyarə xanım gözəl ailə başçısı idi: onun övladları ölkəmizin fəal ziyalıları, vətənpərvər vətəndaşlarıdır. Ürəyi vətəninə, millətinə, işlədiyi kollektivə sonsuz məhəbbətlə dolu xalqımızın bu vətənpərvər qızının əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!!**

*Tibbi profilaktika fakültəsinin dekanlığı və Azərbaycan dili kafedrası*

# Son 25 il ərzində vərəmdən ölüm halları iki dəfə azalıb

**Vərəmə yoluxma nəticəsində ölüm halları 1990-cı ildən təxminən iki dəfə azalıb. Buna baxmayaraq, hələ də bu təhlükəli xəstəlik hər gün 4 min 400 nəfərin həyatına son qoyur.**



AZƏRTAC xəbər verir ki, bu barədə Dünya Səhiyyə Təşkilatının (DST) hesabat məruzəsində bildirilir.

"Hesabat göstərir ki, vərəmlə mübarizə üzrə həyata keçirilən tədbirlər uğurlu nəticələrə gətirib",-deyə DST-nin Baş direktoru Marqaret Çan bildirib. Onun sözlərinə görə, nailiyyətlər çox təsirlidir, amma bu epidemiyanın kökünü kəsmək üçün tədqiqatlara sərmayə qoyuluşunu artırmaq lazımdır.

Məruzə müəllifləri qeyd ediblər ki, xəstəliklə mübarizədə ən nəzərəçarpan irəliləyiş 2000-ci ildən sonra müşahidə olunub. Belə ki, 2000-ci ildən 2015-ci ilədək olan dövrdə vərəmin müasir diaqnostikası və müalicəsi nəticəsində 43 milyon insanın həyatını xilas etmək mümkün olub. Amma uğurlara baxmayaraq, vərəm dünya səhiyyə sistemində hələ də ciddi təhlükə yaradır.

# Azərbaycan ilə Qazaxıstan arasında tibbi təhsil sahəsində əlaqələr genişlənir

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) rektoru, professor Nazim Qasımov Qazaxıstanda səfərdə olub.**



ADHTİ-dən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində N.Qasımov Qazaxıstan Davamlı Tibbi Təhsil Universitetinin rektoru Qalımjan Toqizbayevlə görüşüb.



Görüşdə hər iki tərəf arasında əməkdaşlıq perspektivləri müzakirə olunub və sonda anlaşma memorandumu imzalanıb.

Qazaxıstan Səhiyyə Nazirliyinin Ali Səhiyyə Məktəbinin (QASM) rektoru Janna Almatayeva ilə keçirilən görüşdə hər iki ali tibb müəssisəsinin təcrübələri və fəaliyyətləri haqqında danışılıb, tərəflər arasında elmi-təcrübi mübadilə və birgə layihələrin həyata keçirilməsinin inkişaf yolları müzakirə olunub. Yekunda ADHTİ ilə QASM arasında anlaşma memorandumu imzalanıb.

Hər iki sənəd həkimlər üçün ixtisaslaşma və təkmilləşdirmə proqramlarının hazırlanması, elmi və praktiki tədbirlərin keçirilməsi, tibbi təhsilin əsas komponentlərini həyata keçirən mütəxəssislər arasında təcrübə mübadiləsi və s. məsələlərlə bağlı birgə əməkdaşlığın qurulmasını özündə əks etdirir.

## 29 oktyabr ÜMUMDÜNYA İNSULTLA MÜBARİZƏ GÜNÜDÜR

# Hər il yer kürəsində 16 milyon insult baş verir, bunların 7 milyonu ölümlə nəticələnir

**Hər birimiz qolu sallanmış (hərəkətsiz), ayağını çəkə-çəkə yeriyən insanları görəndə istər-istəməz bunların cavan yaşdan əlil olmasına görə heç olmasa heyfslənirik...**

Sirr deyil ki, iflicin əsas səbəbi insultlardır. Bu xəstəliyə düçar olanların yaşı cavanlaşır və sayı artır. Azərbaycan əhalisinin ölüm səbəblərinin birincisi ürək-damar xəstəlikləri olaraq qalır–buna isə beyin qan-damar xəstəlikləri və insult aiddir.

İnsult beyin qan dövranının kəskin pozulması, yəni beyni qidalandıran damarlardan birinin və ya bir neçəsinin tamlığının pozulması, daralması (spazmı) və ya tutulmasıdır. Ağır gedişli insultlardan sonra baş beyin funksiyasının yalnız qismən bərpa olunması tez-tez rast gəlinən reallıqdır. Bu xəstəlik hər yaşda və hər anda baş verə bilər (S.Davis, 2013). Hər il yer kürəsində 16 milyon nəfərdə insult baş verir və bunların 7 milyonu ölümlə nəticələnir (www.worldstrokecampaign.org).

İnsult müvəqqəti əmək qabiliyyətinin itirilməsi və əlilliklə nəticələndiyinə görə aktual tibbi-sosial problem olaraq qalır. Bu xəstəlik hər yaşda və hər anda baş verə bilər. Elə buna görə ötən il İstanbulda 9-cü Ümumdünya İnsult Konqresində ilk dəfə insult xəstələrin hüquqlarına aid sənəd təqdim olunub. Bu sənəd artıq əksər ölkələrdə dəstəklənib. Bu sənəd artıq əksər ölkələrdə dəstəklənib və bunun əsas bəndlərini həyata keçirmək üçün tibbi ictimayyət ardıcıl atdımlar atır. Bu qanun layihəsi 3 növ hüquqdan ibarətdir:

1. İnsult xəstəliyi zamanı ən yaxşı müalicə almaq hüququ.
2. İnsult xəstəliyi haqda məlumatlı olub, ona hazır olmaq hüququ.
3. Bərpa dövründə dəstək görmək hüququ.






Bu məqsədlərə uyğun təşkilatımız tərəfindən 5 il ərizində mütəmadi aparılan müxtəlif cəhdlər: elmi-praktik konfransların keçirilməsi, həkimlər üçün treninqlər, İnsulta Qarşı Milli Proqramın təqdimatının səhiyyə strukturları tərəfindən rəsmi dəstəklənir.

**Dilarə GÜLABLI,**
*İnsultla Milli Mübarizə Assosiasiyası İB-nin idarə heyətinin sədri*

# Geyimlər sağlamlıq üçün təhlükəli ola bilər



Gündəlik geyimlərin toxumalarında sağlamlıq üçün təhlükəli kimyəvi maddələr gizlənib.

AZƏRTAC svopi.ru saytına istinadla xəbər verir ki, İsveç alimləri 60 ədəd müxtəlif növ parçanı testdən keçirdikdən sonra bu qənaətə gəliblər. Tədqiqat üçün toxuculuq sənayesində istifadə olunan parçalar seçilib. Təhlillər nəticəsində məlum olub ki, parçalarda mindən çox kimyəvi maddə var. Bu maddələrin təsiri insanlarda dəri xəstəliklərinin, eləcə də allergiyaların yaranması riskini artırır. Hətta paltarların yuyulması belə insanlara həmin maddələrin zərərli təsirlərindən yaxa qurtarmağa kömək etmir.

Alimlər kimyəvi maddələrin insan orqanizminə mənfi təsirinin qarşısını almaq məqsədilə tədqiqatları davam etdirmək niyyətindədirlər.

# İnsult xəstəliyinə qadınlarla müqayisədə kişilərdə daha çox rast gəlinir

**Dünya Səhiyyə Təşkilatı (DST) tərəfindən hər il oktyabrın 29-u Ümumdünya İnsultla Mübarizə Günü kimi qeyd edilir. Bu təşkilatın məlumatına görə, hər il Yer kürəsində təxminən 16 milyon nəfərdə insult baş verir və bunların 7 milyonu ölümlə nəticələnir. Məhz buna görə də insultla mübarizə gününün keçirilməsi maarifləndirici tədbir kimi zəruridir.**

Adətən bu xəstəliyə tutulanların üçdə biri ölür, qalanları isə əlilə çevrilir. Amma insultun qarşısını almaq və xəstələrə yardım etmək mümkündür. Damarların tutulması baş verən işemik insultdan sonra insanlar salamat qalsa da, əlilə çevrilir. Əsas məsələ xəstəyə ilk 3-4 saat ərzində yardım göstərməkdir.

Çoxları insult olduqlarını bilmədikləri üçün ölürlər. İnsult simptomları çox sadədir: insult olan insan anlaqsız danışır, gülləndə ağız küncləri aşağı düşür, koordinasiyası pozulur, ətraflarından biri zəifləyir. Bu, təcili yardım çağırmaq üçün yetərlidir.

İnsult riskinin olub-olmadığını öyrənmək üçün mürəkkəb tədqiqatlar lazım deyil. Sadəcə yuxu arteriyalarının ultrasəs müayinəsini aparmaq, təzyiqi nəzarətdə saxlamaq, normal qidalanmaq və siqaretdən uzaq durmaq lazımdır. Üç əsas şey - hipertoniya, yüksək xolesterin və bədənin artıq çəkisi risk amilini artırır.

Həkimlərin qənaətinə görə, insult xəstəliyinə qadınlarla müqayisədə kişilərdə daha çox rast gəlinir. İnsult keçirənlərin sayı 55 yaşdan sonra iki dəfə artır. Lakin onu da qeyd edək ki, səhhətinə biganə qalmayan hər bir insan üçün bu xəstəlikdən qorunmaq asandır. Zərərli vərdişlərdən uzaq olan, düzgün qidalanan, sağlam həyat tərzi keçirən, siqaret və içkidən uzaq olanların insult keçirmək riski, demək olar ki, sıfıra bərabərdir. Vaxtlı-vaxtında həkim müayinələrindən keçmək də vacib şərtlərdəndir. Mütəmadi açıq havada gəzmək, orta sürətlə gündə heç olmasa yarım saat yerimək nəinki insult riskini azaldır, həmçinin insanın əmək qabiliyyətini artırır.



Mütəxəssislər belə hesab edirlər ki, yarmalar, meyvələr və balıq insult riskini 30 faiz azaldır.

# Azərbaycan sahibkarları Hindistanda səhiyyə sərgilərində iştirak edə bilərlər

INDIA PHARMA 2016™
January 7th - 9th, 2016
Bangalore International Exhibition Centre, Bengaluru

2016-cı il yanvarın 7-də Hindistan Ticarət və Sənaye Palatası Federasiyasının təşkilatçılığı ilə Karnataka ştatının paytaxtı Banqalor şəhərində "İNDİA PHARMA-2016" və "İNDİA MEDİCAL EXPO 2016" adlı sərgilər keçiriləcək.

Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasından AZƏRTAC-a bildiriblər ki, sərgilərin əsas məqsədi Hindistanın əczaçılıq və tibb sahəsini dünyaya tanıtmaqdan, tibbi avadanlıqların və dərmanların sərgilənməsi və yeni investorların axtarışından ibarətdir. Sərgilər yanvarın 9-da başa çatacaq. Sərgilərdə iştirak etmək istəyən Azərbaycan sahibkarları Hindistanın Bakıdakı səfirliyinə müraciət edə bilərlər.



## Payız etüdləri

## Etibarsız sayılır

Mehdiyeva Hədiyə Mehti qızına 2010–cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən mikrobiologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məmmədova Lalə Cümşüd qızına 1985-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, 741$^{a}$ qrup tələbəsi Camalova Nuriyyə Muxtar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, 890$^{b}$ qrup tələbəsi Zəki Səmir Ali oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 795$^{b}$ qrup tələbəsi Ali Attar Fadil oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, 102$^{a}$ qrup tələbəsi Qədirov Əli Məzahir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyat və sənaye fakültəsinin III kurs, 198-ci qrup tələbəsi Muxtarov Murad Azər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 168$^{a}$ qrup tələbəsi Soltanova Ayşən Ayxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 100**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 266